Məlum olduğu kimi, Dövlət İmtahan Mərkəzinin ödənişli xidmətlərindən faydalanmaq istəyən istifadəçilər "Şəxsi kabinet"lərinin hesabına tələb olunan məbləği əlavə etməlidirlər. Bunun üçün istifadəçilər, ilk növbədə ekabinet.dim.gov.az saytında öz “Şəxsi kabinet”lərini yaratmalıdırlar. Şəxsi kabinetin yaradılma və istifadə qaydası ilə buradan tanış ola bilərsiniz.

**Ödəniş xidmətləri**

Vətəndaşların “Şəxsi kabinet” yaratdıqdan sonra ödəmə həyata keçirmək üçün bir neçə üsuldan istifadə etmək imkanları var:

1. Vətəndaşlar ödənişi bank kartı vasitəsilə onlayn şəkildə “Hesab.az” (təhsil - DİM), “AsanPay”də (təhsil ödənişləri - DİM) və və ya bu elektron ödəniş sistemlərinin şəbəkələrinə qoşulmuş ödəniş terminalları vasitəsilə apara bilərlər.

2. Banklara məxsus mobil tətbiqlərdən istifadə etməklə şəxsi kabinetə ödəniş etmək mümkündür. Bunun üçün tətbiqdə “Təhsil”-> “Dövlət İmtahan Mərkəzi” (bəzi banklara məxsus mobil tətbiqlərdə isə “Hökumət ödənişləri” -> “Dövlət İmtahan Mərkəzi”) bölməsinə daxil olmaq lazımdır.

3. Banklara məxsus ödəniş terminalları (məsələn “ExspressPay” (təhsil - DİM) və poçt şöbələrində olan e-GovPay ödəniş terminalları vasitəsilə də nağd şəkildə “Şəxsi kabinet”in hesabına vəsait əlavə etmək mümkündür. Expresspay ödəniş terminallarının ünvanları, Asanpay ödəniş terminallarının ünvanları, e-GovPay ödəniş terminallarının ünvanları.

QEYD: Ödəmə əməliyyatı uğurlu həyata keçibsə, şəxsi kabinetin “HESAB” bölməsində ödənilən məbləğ görünür.